İlyasov Vəli. Bu məkanda hamı ehtiramla ayaq saxlayır // İki sahil. - 2022. - 1 oktyabr. - № 179. - S. 17.

Gəncə-Tərtər şose yolunun üstündəki Qaradağlı kəndinin girəcəyində qara mərmərdən səliqə ilə tikilmiş və gül-çiçəyə qərq edilmiş xatirə-bulaq kompleksi buradan ötüb keçənlərin diqqətini özünə çəkir...Hamı bir anlıq da olsa ayaq saxlayır, burada abidəsi ucalan igidi hörmətlə yad edir, ona Allahdan rəhmət diləyir. Bəli, mərmər lövhədən boylanan gənc hərbçinin gözlərindəki qorxmazlıq, mərdanəlik, şəfqət, güclə hiss olunan gizlin bir nisgil buradan ötüb-keçən hər kəsi ayaq saxlamağa vadar edir. Sinəsindəki orden və medallar, fərqləndirici nişanlar onun igid bir döyüşçü olduğundan xəbər verir...Bəli, Aslan belə oğul idi.

...Şəhid Aslan Malik oğlu Hüseynovun adı indi bütün Qaradağlı kəndinin sakinləri və döyüş yoldaşları tərəfindən dərin hörmət və məhəbbətlə anılır. Şərəfinə ucaldılan abidə isə kənd əhalisinin and yerinə çevrilib.

Aslan təbiətən sakit, utancaq və təvazökar bir gənc idi. Ancaq onu da bilirdilər ki, bu keyfiyyətləri ilə bərabər, həm də qorxmaz və dönməzdir, qətiyyətlidir. Xoş rəftarı ilə kənddə təkcə qohum-əqrəbanın deyil, hamının sevimlisinə çevrilmişdi. Ona görə ki, kimə bir işdə kömək lazım olurdusa Aslan orada idi. Az danışıb çox iş görməyi, əvəz gözləməməsi ilə hamının dərin rəğbətini qazanmışdı.

Orta məktəbi bitirəndən bir il sonra günlərin birində Aslan hərbi xidmətə getdi. Hərbi xidmətini başa vurduqdan sonra könüllü olaraq ordu sıralarında qaldı və xidmətini davam etdirdi. Sonra ailə qurdu, bir oğul, bir qız atası oldu.

2016-cı ilin aprelində artilleriya bölmələri tərkibində Lələtəpə uğrundakı döyüşlərdə hünər göstərdi. Ermənilərin mif düzəltdikləri guya keçilməz "Ohanyan xətti" igid artilleriyaçılarımızın sərrast atəşləri ilə cəmi 40 dəqiqəyə darmadağın edildi. Gizir Aslan Hüseynovun öz topçu batareyası ilə düşmən müdafiəsinin yarılmasında və qoşunlarımızın hücuma keçməsində əhəmiyyətli xidmətləri oldu. Dəqiq atəşləri ilə düşmənin bir neçə zirehli texnikasını və canlı qüvvəsini sıradan çıxardı. Döyüş dostları ona zarafatla: "Adını düz qoyublar, Aslansan ki, aslansan"- dedilər. Döyüşlərdə mərdlik və igidlik göstərdiyinə görə gizir Aslan Hüseynov “Hərbi xidmətdə fərqlənməyə görə” və “Şücaətə görə” medalları ilə təltif olundu.

Dördgünlük müharibədən çox keçməmiş xidmət etdiyi hərbi hissənin komandanlığı gizir Hüseynovu yeni hərbi texnikanın sirlərini mənimsəmək üçün ixtisasartırma kursuna göndərdi. O, kursda xaricdən alınmış müasir raket atan silahla davranmağı öyrəndi, ekipaj komandiri kimi daha da püxtələşdi.

...2020-ci il sentyabrın 27-də sübh tezdən Azərbaycan Silahlı Qüvvələri Ermənistanın davamlı təxribatlarına cavab olaraq Qarabağ torpaqlarını azad etmək üçün əks-hücum əməliyyatlarına başladı. Hərbi əməliyyatların birinci günündə

gizir Aslan Hüseynov cəbhənin Goranboy-Suqovuşan istiqamətində düşmənin hərbi texnikalarını vurur, piyadaları üçün əsl cəhənnəm yaradırdı.

Müharibənin dördüncü günü... Baş gizir Aslan Hüseynov optik cihazla düşmən tankının ağır-ağır irəlilədiyini gördü və məsafəni təyin edərək atəş açdı. Erməni tankı ona dəyən zərbədən silkələnib dayandı və qara tüstüyə büründü. Aslan zirehli maşından özünü yerə atıb sevincini dostları ilə bölüşmək istərkən lap yaxınlığında top mərmisi partladı...Aslan yıxıldı...

Döyüş dostları ona tərəf tələsdilər, ancaq gec idi. Qəlpə onu bir neçə yerdən elə yaralamışdı ki..!

...Həmin gün Qaradağlı kəndində iynə atsalar yerə düşməzdi. Onun dəfninə respublikamızın bir çox bölgələrindən də gəlmişdilər. Atası Malik, anası İradə məğrur idilər, ağlayıb-sıtqamırdılar. Onlar özlərini yenilməz qəhrəman valideynləri kimi aparırdılar. Bu gün Vətən torpağının azadlığı qurban tələb edir, bu yolda heç kəs öz canını əsirgəməməlidir. "Otuz ildir bizə qan udduran düşmən nəhayət, nəyin bahasına olursa-olsun müqəddəs torpaqlarımızdan süpürülüb atılmalıdır"- deyirdilər. Əhsən belə valideynlərə!

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə baş gizir Aslan Hüseynov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni“ və "Suqovuşanın azad olunmasına görə” medalı və  təltif olundu. Aslan otuz beş yaşında Vətənə layiqli xidməti və sonda şəhadəti ilə xalqımızın əbədi məhəbbətini qazandı.

Qəhrəman Aslanımız iki ildir ki, cismən aramızda yoxdur. Amma o, qəlbimizdə əbədi yaşayır və yaşayacaqdır! Çünki şəhidlər ölməz, Vətən bölünməz!